S.1.

# Yeni mərhələnin hədəfləri Azərbaycanı daha da qüdrətləndirəcək

Bəyan olunduğu kimi, qarşıdakı dövr üzrə təhlükəsizlik, sabitlik və müdafiə qabiliyyətinin gücləndirilməsi, ordu quruculuğu və hərbi sənayenin inkişafı əsas milli hədəflər kimi davam etdiriləcək. Prezident tarixi çıxışında qeyd etdiyi kimi, "İkinci Qarabağ müharibəsi və antiterror tədbirləri ilə sarsılmaz hesab olunan elə bir daşları tərpətdik ki, bunu bizə bağışlamayacaqlar, biz bunu bilməliyik. Əgər kimsə hesab edirsə ki, bizdən əl çəkəcəklər, səhv edir. Biz hazır olmalıyıq, səfərbər olmalıyıq".

→ 8

Azərbaycan.- 2024.- 18 fevral, № 37.



# Yeni mərhələnin hədəfləri Azərbaycanı daha da qüdrətləndirəcək



"Azərbaycan Prezidentinin fevralın 14-də Milli Məclisdə keçirilən andiçmə mərasimi böyük tarixi hadisədir və ictimai-siyasi əhəmiyyət daşıyır. Bütün ölkə ərazisində keçirilən seçkilər nəticəsində qalib olan Prezidentin andiçmə mərasimi dövlətçilik tariximizdə mühüm yer tutacaq. Bu həm də dövlət başçısının verdiyi sözə və müqəddəs vədə əməl etməsinin siyasi təcəssümü, siyasi proqramının uğurla həyata keçirilməsinin manifesti sayıla bilər".

Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Aydın Hüseynov bildirib. Deputat qeyd edib ki, şərəfli və nümunəvi fəaliyyəti ilə özünün möhtəşəm siyasətçi statusunu təsdiqləyən və dövlət başçıları arasında yüksək keyfiyyətləri ilə diqqəti cəlb edən Prezident İlham Əliyev bu gün dünya siyasətinin müəyyənləşdirilməsində iştirak edən, yol göstərən siyasi liderdir. Onun təkcə regionda deyil, dünyada cərəyan edən siyasi proseslərə baxış bucağı və yanaşma prinsipləri siyasi dialoqa, sülhpərvər missiyaya, faydalı əməkdaşlığa və qarşılıqlı rifaha xidmət edir.

A.Hüseynov deyib ki, Prezident andiçmə mərasimində yeni dövr üzrə prioritetləri, daxili və xarici siyasət kursunu aydın formada müəyyən etdi: "Bəyan olunduğu kimi qarşıdakı dövr üzrə təhlükəsizlik, sabitlik və müdafiə qabiliyyətinin gücləndirilməsi, ordu quruculuğu və hərbi sənayenin inkişafı əsas milli hədəflər kimi davam etdiriləcək. Prezident tarixi çıxışında qeyd etdiyi kimi, "İkinci Qarabağ müharibəsi və antiterror tədbirləri ilə sarsılmaz hesab olunan elə bir daşları tərpətdik ki, bunu bizə bağışlamayacaqlar, biz bunu bilməliyik. Əgər kimsə hesab edirsə ki, bizdən əl çəkəcəklər, səhv edir. Biz hazır olmalıyıq, səfərbər olmalıyıq". Ona görə də hərbi rəşadətin artırılması, milli hərbi təhülkəsizlik və sərhədlərimizin təhlükəsizliyinin daha da gücləndirilməsi ən başlıca prioritet kimi diqqətdə saxlanılacaq. Azərbaycan İlham Əliyevlə yeni, eləcə də davamlı uğurların və xoşbəxt gələcəyin astanasına, tərəqqinin 5-ci mərhələsinə daxil olur. Prezident İlham Əliyev ona etimad göstərmiş seçicilərə minnətdarlığını bəyan etdi, qarşıda yeni inkişaf və tərəqqi naminə birlikdə görüləcək işlərin ssenarilərini, atılacaq addımların hədəflərini bildirdi. Azərbaycan dövləti güclü sosial islahatların trayektoriyasını geniş şaxələrə əsaslanaraq irəlilətməyi, bununla da insanların rifahının ən yüksək həddə çatdırılmasını təmin etməyi başlıca trendlərdən hesab edir və qarşıdakı illərdə bu mühüm prioritetlər rifahın daha da yaxşılaşmasına xidmət edəcək. Eləcə də milli iqtisadiyyatın ana xətti olan sahibkarlığın inkişafı, azad biznesə və özəl sektora dövlət dəstəyinin yeni mərhələsi başlayır".

Deputat bildirib ki, yeni dövrün memarı olaraq İlham Əliyev xarici siyasət kursu ilə bağlı da fundamental prinsipləri bəyan etdi: "Xarici siyasət kursumuzun ikinci vacib konseptual elementi isə Azərbaycanın daha çox qlobal oyunçu kimi çıxış etmək niyyətində ehtiva olunur. Bütün ölkələrlə qarşılıqlı hörmət və faydalı əməkdaşlıq, beynəlxalq fəaliyyətdə humanizm və təşəbbüskarlıq əsas prioritetlərdir. Ana milli hədəf isə türk dünyası ilə əlaqələrin daha da möhkəmləndirilməsidir. Dövlət başçısının təbirincə, "böyük coğrafiya, böyük ərazi, böyük hərbi güc, böyük iqtisadiyyat, təbii sərvətlər, nəqliyyat yolları, gənc və artan əhali" kimi vacib elementləri birləşdirən Türk Dövlətləri Təşkilatı həm də bir soydan, eyni kökdən xalqlar olması baxımından Azərbaycan üçün ailədir və bu ailə daha da qardaşlaşacaq, dünyaya örnək olacaq, iqtisadi möcüzələr bəxş edəcək".

Aydın Hüseynov həmçinin qeyd edib ki, Prezident İlham Əliyevin milli birlik və həmrəylik, ideoloji bütövlük və tamlıq, azərbaycançılıq ideologiyası, ailə dəyərlərinin qorunması, gənc nəslin milli məfkurə və vətənpərvərlik ruhunda tərbiyə olunması kimi dəyərli prioritetlərin də qarşıdakı illərdə dövlət siyasətinin əsas konturlarını təşkil edəcəyi barədə fikirləri yeni epoxada Azərbaycanın qüdrətli sosial-humanitar dövrə başladığını ehtiva edir.

Müsahibimizin dediklərinə görə, yeni yeddiillik dövr demokratik cəmiyyətin, liberal bazar münasibətlərinə əsaslanan iqtisadi siyasətin yeni müstəvidə və modern mərhələdə gücləndirilməsi, neft gəlirlərinin məqsədyönlü idarə olunması və birbaşa insan amilinə, yəni intellektual kapitala yönəlməsi, qeyri-neft sahələrinin potensialının daha da gücləndirilməsi, azad edilmiş ərazilərin iqtisadi imkanlarının ölkə iqtisadiyyatına reinteqrasiyasının təmin olunması, rəqəmsal cəmiyyətin qurulması kimi milli hədəflərə çatmaq üçün ən optimal və inamlı mərhələ olacaq.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*